● **Osman Fermanoğlu**

## Dədə

Hör bir daş yuxarı, bir daş aşağı,
Yıxılan dizindən yıxılır, Dədə!
İynədən adlayır, gələn işığı,
Yuxalan sözündən yuxalır, Dədə!

Daşın çatmayırsa, daş harayına,
Baxıb qürurlanma daş sarayına,
Aldanma telini yan darayana,
Soğulan gözündən soğulur, Dədə!

Uzaq gedə bilməz, günün birində,
Enər ucalıqdan tərs düşən bəndə,
Addım sayılmaz ki, addımlar tində,
Doğulan izindən doğulur, Dədə!

Quş quşdu alışmır yuvasızlığa,
Adam yurd-yurd keçir davasızlığa,
Bəlkə, dözmək olar havasızlığa,
Boğulan özündən boğulur, Dədə!

*Osman*, uzaqların bozarır üzü,
Divara çevrilir hər umu-küsü,
Nə yaman böyüyür  qının ölçüsü,
Yığılan gün- gündən çoxalır, Dədə!